## Pilot layihə çərçivəsində həkimlərin əmək haqlarına əlavələrin hesablanması və ödənilməsi Qaydaları

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihə”nin (bundan sonra – pilot layihə) 15-ci hissəsinə uyğun olaraq hazırlanmışdır və pilot layihə çərçivəsində Agentliyin tabeliyinə verilmiş dövlət səhiyyə sisteminə daxil olan qurumlarda (bundan sonra – tibb təchizatçıları) göstərilən tibbi xidmətlərin müqabilində həkimlərin mövcud əmək haqlarına əlavələrin verilməsi qaydasını müəyyən edir.

1.2. İcbari tibbi sığorta çərçivəsində həkimlərin əmək haqlarına tətbiq edilən əlavələr iki növdən ibarətdir:

- icbari tibbi sığortanın həyata keçirilməsi ilə əlaqədar olaraq həkimlərin əmək haqlarına tətbiq edilən stimullaşdırıcı əlavələr;
- həkimlərin fəaliyyətinin kəmiyyət göstəricilərinin dəyərləndirilməsi məqsədilə normativlərin yerinə yetirilməsi ilə bağlı verilən əlavələr (bundan sonra – normativlərlə bağlı əlavələr).

### 2. Əmək haqlarına stimullaşdırıcı əlavələrin verilməsi qaydaları

2.1. İcbari tibbi sığortanın tətbiqi məqsədilə tibb təchizatçılarının yeni prinsiplərə əsasən maliyyələşməsi ilə əlaqədar olaraq həmin tibb təchizatçılarında çalışan həkimlərin ixtisasından və ya çalışdığı struktur vahidindən asılı olaraq “Səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 mart tarixli 3731 nömrəli Sərəncamı, “Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 mart tarixli 89 nömrəli Qərarı, “Azərbaycan Respublikasının büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sisteminin, növlərinin və məbləğinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı və digər normativ hüquqi aktlarla tənzimlənən mövcud əmək haqlarına hər ay **stimullaşdırıcı əlavələrin** məbləği aşağıdakı qaydada müəyyənləşdirilir:

| Sıra nömrəsi | Struktur vahidin/ixtisasın adı | Həkimlərin əmək haqlarına tətbiq edilən stimullaşdırıcı əlavələrin məbləği (vergilər və digər tutulmalar daxil olmaqla) |
|---|---|---|
| 2.1.1. | Uşaq şöbəsi, Uşaq Nevroloji Sanatoriyası, Fizioterapiya şöbəsi, Terapiya şöbəsi, Vərəm şöbəsi (Ftiziatrik kabinet), Yoluxucu Xəstəliklər şöbəsi, Poliklinika şöbəsi, Hemodializ şöbəsi | 240,00 manat |
| 2.1.2. | Ginekologiya doğum şöbəsi, Reanimasiya şöbəsi, Cərrahiyyə şöbəsi, | 540,00 manat |

| | | |
|---|---|---|
| | Endoskopiya ixtisası üzrə çalışan həkimlər | |
| 2.1.3. | TTTY şöbəsi | 200,00 manat |
| 2.1.4. | Radiologiya şöbəsi | 740,00 manat |
| 2.1.5. | Ailə Sağlamlıq Mərkəzi şöbəsi | 360,00 manat |
| 2.1.6. | Laboratoriya şöbəsi | 240,00 manat |
| 2.1.7. | Statistika bölməsinin müdiri və həkim-statistik ixtisası üzrə çalışan həkimlər | 380,00 manat |
| 2.1.8. | Böyük provizor ixtisası üzrə çalışan həkimlər (Bölmə müdiri və ya Aptek bölməsi) | 630,00 manat |
| 2.1.9. | Provizor ixtisası üzrə çalışan həkimlər | 300,00 manat |
| 2.1.10. | Səhiyyə xidmətlərinin təşkili şöbəsi[1] | 240,00 manat |

*[1] 2.1.10-cu yarımbənd yalnız "Mingəçevir şəhər Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsə şamil edilir.*

2.2. Şöbə rəhbəri (müdiri) vəzifəsi funksiyalarını yerinə yetirən həkimlərin iş həcminin və iş gərginliyinin nəzərə alınması məqsədilə onların mövcud əmək haqlarına əlavələrin məbləği bu Qaydaların 2.1-ci bəndində təsbit olunmuş qaydada stimullaşdırıcı əlavələrin verilməsi, habelə stimullaşdırıcı əlavələrin 15%-i həcmində artırılması (vergilər və digər tutulmalar daxil olmaqla), Ailə Sağlamlıq Mərkəzi şöbəsi rəhbərinin (müdirinin) əmək haqqına isə əlavə olaraq hər ay 540 manat (vergilər və digər tutulmalar daxil olmaqla) həcmində əlavələrin verilməsi yolu ilə müəyyənləşdirilir.

2.3. Ailə Sağlamlıq Mərkəzi şöbəsinin bölmə rəhbərləri (müdirləri) vəzifəsi funksiyalarını yerinə yetirən həkimlərin əmək haqları iş həcminin və iş gərginliyinin nəzərə alınması məqsədilə onların mövcud əmək haqlarına bu Qaydaların 2.1-ci bəndində təsbit olunmuş qaydada stimullaşdırıcı əlavələrin verilməsi, habelə stimullaşdırıcı əlavələrin hər ay 15%-i həcmində artırılması (vergilər və digər tutulmalar daxil olmaqla) yolu ilə müəyyənləşdirilir.

2.4. MRT (Maqnetik Rezonans Tomoqrafiyası) və KT-nin (Kompüter Tomoqrafiyası) nəticələrinin oxunması və hər raportun verilməsinə görə Radiologiya şöbəsində çalışan həkimlərin əmək haqlarına vergilər və digər tutulmalar daxil olmaqla 4,00 manat məbləğində əlavələr tətbiq edilir.

2.5. EKQ (Elektrokardioqramma) rəyləri yazan həkimlərin əmək haqlarına hər xəstə üçün vergilər və digər tutulmalar daxil olmaqla 1,00 manat məbləğində, Elektroensefaloqrafiya və Elektromioqrafiya müayinələri üzrə rəy yazan həkimlərin əmək haqlarına isə hər xəstə üçün vergilər və digər tutulmalar daxil olmaqla 2,00 manat məbləğində əlavələr tətbiq edilir.

## 3. Normativlərlə bağlı əlavələrin verilməsi qaydaları

3.1. Bu Qaydaların 3.3-cü bəndinə uyğun olaraq tibb təchizatçılarında çalışan həkimlərin pilot layihə çərçivəsində fəaliyyətinin ölçülməsi, dəyərləndirilməsi və **normativlərlə bağlı əlavələrin** verilməsi məqsədilə onlar tərəfindən göstərilən tibbi xidmətlərə normativlər tətbiq olunur. Normativlər tibb təchizatçılarında çalışan həkimlər

tərəfindən göstərilən fəaliyyətin effektivliyinin kəmiyyət baxımından aşağı və yuxarı həddini müəyyən edir.

3.2. Bu Qaydaların 3.3-cü bəndinə uyğun olaraq tibb təchizatçılarında çalışan həkimlər tərəfindən normativlərin aşağı həddini aşaraq göstərilən hər növbəti tibbi xidmətə görə əmək haqlarına normativlərlə bağlı əlavələr tətbiq edilir. Normativlərin yuxarı həddini aşaraq göstərilən növbəti tibbi xidmətə görə normativlərlə bağlı əlavələr ödənilmir.

3.3. Tibb təchizatçılarında çalışan həkimlər üçün normativlər, normativlərin aşağı həddini aşaraq hər növbəti tibbi xidmətə görə ödənilən normativlərlə bağlı əlavələrin məbləği (bu Qaydaların 2.1-2.5-ci bəndlərində qeyd olunmuş əmək haqları və əlavələr saxlanılmaqla) aşağıdakı qaydada müəyyənləşdirilir:

| **Sıra nömrəsi** | **Struktur vahidin/ixtisasın adı** | **Normativlər** | **Normativin aşağı həddini aşaraq göstərilən hər növbəti tibbi xidmətə görə ödənilən normativlərlə bağlı əlavələrin məbləği (vergilər və digər tutulmalar daxil olmaqla)** |
|---|---|---|---|
| 3.3.1. | Uşaq şöbəsi, Uşaq Nevrologiya Sanatoriyası, Fizioterapiya şöbəsi, Terapiya şöbəsi, Poliklinika şöbəsi, Hemodializ şöbəsi | | |
| 3.3.1.1. | Terapevt ixtisası istisna olmaqla digər ixtisaslar üzrə çalışan həkimlər | Hər həkim üçün orta gündəlik normativ: minimum 10 pasiyentə tibbi xidmətin göstərilməsi, lakin 20 pasiyentdən yuxarı olmamaq şərtilə | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə müvafiq tibbi xidmət üçün təsdiq edilmiş tarifin 15% həcmində |
| 3.3.1.2. | Terapevt ixtisası üzrə çalışan həkimlər | Hər həkim üçün orta gündəlik normativ: minimum 12 pasiyentə tibbi xidmətin göstərilməsi, lakin 20 pasiyentdən yuxarı olmamaq şərtilə | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə müvafiq tibbi xidmət üçün təsdiq edilmiş tarifin 15% həcmində |
| 3.3.2. | Cərrahiyyə şöbəsi (proktoloji və LOR əməliyyatları istisna olmaqla), Ginekologiya Doğum şöbəsi | Hər həkim üçün aylıq normativ: 10 pasiyentə əməliyyatın (fizioloji doğuş daxil olmaqla | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə müvafiq tibbi xidmət |

| | | | |
|---|---|---|---|
| | | göstərilməsi) həyata keçirilməsi | üçün təsdiq edilmiş tarifdən 30% həcmində tibbi sərfiyyatın və 4% həcmində inzibati xərclərin dəyəri çıxıldıqdan sonra hesablanan məbləğin 20% həcmində |
| 3.3.3. | Cərahiyyə şöbəsində proktoloji və LOR əməliyyatları həyata keçirən həkimlər | Hər həkim üçün aylıq normativ: 10 pasiyentə əməliyyatın həyata keçirilməsi | Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə müvafiq tibbi xidmət üçün təsdiq edilmiş tarifdən 20% həcmində tibbi sərfiyyatın və 4% həcmində inzibati xərclərin dəyəri çıxıldıqdan sonra hesablanan məbləğin 20% həcmində |
| 3.3.4. | Reanimasiya şöbəsi | Hər həkim üçün aylıq normativ: 10 pasiyentə anesteziya verilməsi | Hər anesteziya (yerli anesteziya istisna olmaqla) üçün 10,00 manat; |
| 3.3.5. | Bütün ixtisaslar üzrə çalışan həkimlər | Normativ tətbiq olunmur | Sığorta olunan hesab edilməyən şəxslərə tibbi xidmətlər göstərildikdə, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1181 nömrəli Fərmanı ilə müvafiq tibbi xidmət üçün təsdiq edilmiş tarifin 40 % həcmində |

3.4. Orta gündəlik normativ tətbiq olunan şöbələrdə normativlərlə bağlı əlavələr əldə etmək hüququ hər ayın sonunda orta gündəlik normativin təqvim ayındakı mövcud iş günlərinin sayına vurulmaqla hesablanan ümumi aylıq normativə əsasən yaranır. Bu zaman ezamiyyət və məzuniyyətdə olan həkimlərin aylıq normativlərinin hesablanması zamanı ezamiyyət, məzuniyyət və Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada iş yerində olmadığı dövr nəzərə alınmır.

3.5. Reanimasiya şöbəsində çalışan həkimlər üçün normativlərin yerinə yetirilib yetirilməməsindən asılı olmayaraq hər gecə növbəsi üçün vergilər və digər tutulmalar daxil olmaqla 30,00 manat, gecə növbəsi zamanı tibbi xidmət göstərilən hər pasiyent üçün vergilər və digər tutulmalar daxil olmaqla 5,00 manat məbləğində normativlərlə bağlı əlavələr verilir.

3.6. Stasionarda müalicə olunan xəstələrə yatış günləri müddətində həkim təqibi üçün normativlərlə bağlı əlavələr verilməsi aşağıdakı qaydada tənzimlənir:

3.6.1. stasionar yatış günləri 1-5 gün olan xəstələrin təqibi üçün gündəlik vergilər və digər tutulmalar daxil olmaqla 2,00 manat məbləğində normativlərlə bağlı əlavələr verilir;

3.6.2. stasionar yatış günləri 1-10 gün olan xəstələrin təqibi üçün gündəlik vergilər və digər tutulmalar daxil olmaqla 1,00 manat məbləğində normativlərlə bağlı əlavələr verilir. Xəstənin stasionar yatış günləri 10 gün müddətini aşdıqda, hər növbəti gün üçün normativlərlə bağlı əlavələr tətbiq olunmur.

3.7. Normativ tətbiq olunan şöbələrdə və ixtisaslar üzrə çalışan həkimlər tərəfindən bu Qaydaların 3.3-cü bəndində təsbit olunmuş normativlər son iki ayın orta statistik nəticələrinə əsasən 70%-i yerinə yetirilmədikdə, həkimlərin mövcud əmək haqlarına bu Qaydaların 2-ci hissəsi ilə tənzimlənən stimullaşdırıcı əlavələrin verilməsi dayandırılır. Həkim tərəfindən bu Qaydaların 3.3-cü bəndində təsbit olunmuş normativlər yerinə yetirildikdə, stimullaşdırıcı əlavələrin ödənilməsi bərpa olunur.